# ADPU-da Ceyhun Hacıbəylinin 125 illik yubileyinə həsr olunan tədbir keçirilib




Azərbaycan Dövlət Pedaqoji Universitetində (ADPU) Azərbaycan ədəbiyyatının tanınmış nümayəndələrindən biri, yazıçı-publisist, tədqiqatçı, tərcüməçi, naşir, görkəmli ictimai-siyasi xadim Ceyhun Hacıbəylinin 125 illik yubileyinə həsr olunan tədbir keçirilib.

ADPU-nun rektoru, professor Cəfər Cəfərov tədbiri giriş sözü ilə açaraq xalqımızın vətənpərvər oğlu Ceyhun Hacıbəylinin həyat və fəaliyyəti barədə məlumat verib. Qeyd edib ki, Azərbaycanın azadlığı uğrunda fəal mübarizə aparmış Ceyhun Əbdülhüseyn oğlu Hacıbəyli 1891-ci il fevral ayının 3-də Şuşa şəhərində anadan olmuşdur. Onun uşaqlığı doğma Şuşada keçmiş, ilk təhsilini oradakı ikiillik rus-türk məktəbində almış, sonra Bakıda orta məktəbi bitirmişdir.

C.Hacıbəyli 1909-cu ildə ali təhsil almaq məqsədilə Sankt-Peterburq Universitetinin hüquq fakültəsinə qəbul olunmuş, sonra o, Paris şəhərinə gedib məşhur Sorbonna Universitetində təhsilini davam etdirmişdir. Parisdə oxuduğu illərdə Bakıda çıxan "Kaspi", "Baku" qəzetlərində, eyni zamanda Parisdə nəşr olunan mətbuat orqanlarında bir-birindən maraqlı məqalələri dərc edilmişdir.

1918-ci ildə Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasından sonra "Azərbaycan" qəzetinin baş redaktoru vəzifəsində çalışan C.Hacıbəyli 1919-cu ilin yanvar ayında Versal Sülh Konfransına gedən nümayəndə heyətinin tərkibində Parisə getmişdir. 1920-ci il aprelin 28-də Azərbaycan XI ordu tərəfindən işğal olunduğu üçün nümayəndə heyətinin bütün üzvləri, o cümlədən də C.Hacıbəyli bir daha Vətənə qayıtmamış və ömrünün sonuna qədər qürbət ölkədə yaşayaraq, xalqımız naminə yorulmadan çalışmışdır.

C.Hacıbəyli mühacirətdə yaşadığı dövrdə müxtəlif tədqiqat əsərləri nəşr etdirmişdir.

C.Hacıbəyli 1962-ci il oktyabrın 22-də 71 yaşında vəfat etmişdir. Qədirbilən xalqımız onun xatirəsini əziz tutur.

Tədbirdə C.Hacıbəylinin həyat və yaradıcılığı haqqında danışan filologiya fakültəsinin dekanı, professor Buludxan Xəlilov, Azərbaycan və dünya ədəbiyyatı kafedrasının müdiri, professor Himalay Qasımov və digərləri onu əsl vətəndaş, milli ədəbi-ictimai fikir tariximizə böyük töhfələr verən, xalqımızın zəngin mədəni irsinin dünyaya tanıdılması üçün səmərəli fəaliyyət göstərən, daim Azərbaycan uğrunda mübarizə aparan, siyasi cəhətdən yetkin bir ziyalı kimi səciyyələndiriblər.

Elmi işlər üzrə prorektor, professor Asəf Zamanov isə çıxışında tələbələrin elmi biliklərinin artmasına, dünyagörüşlərinin genişlənməsinə müsbət təsir edən belə tədbirlərin müntəzəm keçirilməsinin vacibliyini vurğulayıb.

**İctimaiyyətlə əlaqələr şöbəsi**